اخیرا نچیروان بارزانی به باکو دعوت می‌شود و همراه پرچم عراق پرچم اقلیم کردستان عراق را هم در کنار او قرار داده و با او مذاکره می‌کنند.

ما که طرفدار مذاکره با هر جریان سیاسی هستیم مشکلی با اتفاق اخیر نداریم اما آنانکه در داخل حرکت ملی مترصد هستند کسی یا تشکیلاتی در داخل حرکت از مذاکره و تعامل حرف بزند تا سریعا او را به خیانت متهم کنند چرا در این مورد صدایشان بلند نشد؟

جواب را همه می‌دانیم لمپنیسم قانون و ضابطه ندارد بلکه سلیقه دارد و روحیه تخریب.

تصور کنید اگر به جای جناب علی‌یف یک تشکیلات آذربایجانی در چنین نشستی برای مذاکره شرکت می‌کرد چه هیاهویی به پا می‌شد؟

عقلانیت و سیاست

# *ƏQLANİYYƏT VƏ SİYASƏT* عقلانیّت و سیاست * KİMSƏNİN LÜMPENİZM DƏRSİ!*

## *Cənab əqlaniyyət sözüm sizədir.*

Mənim adım ***Eldar Qaradağlı!*** Adım-sanım bəlli, qələmin, imzam bəllidir. Milli -siyasi ədəbim və ərdəmin kəsinliklə izin verməz ki, özümü dünyanın ağıl mərkəzi sanıb, taxma ad altında Azərbaycan Milli Hərəkatını LÜMPENİZ caynağı, millət-vətən yolçularını isə LÜMPEN adı ilə təlfiq etmiş olum! Bu vəbalın altından çıxmaq hər oğulun işi deyildir!

Siz – Kimsə bəy-bayan! Molla sayağı ortaçağ qafasıyla başqalarını qoyun sürüsü hesab edərək həddinizi molla səviyəsinə yendirdiniz! Siz, öz kimlik varlığınızı heçə sayaraq, yabancı dil və ədəbiyatla Güney Azərbaycan Milli Hərəkatını Lümpenizm caynağı, dörd Güney qurumun Mücahidlərə SALAM göndərməsini qınayan 78 tanınmış milli fəalı lümpen yəni pozuq, yaramaz, satqın elan etdiniz! Əcəba, siz bu hökmü kimdən aldınız? Kimi arxanıza alaraq özünüzdən çox böyük vicdan yükünə qatlandınız? Fars dilində yazmağa alışqanlıq üzündənmi, yoxsa kimsələrə rəfaqət mesajı göndərmək istədiniz mi?

Quzey Azərbaycan dövlət diplomatiyası ilə Güney Azərbaycan Milli Hərəkatının qrtuluş savaşı arasında hansı bənzərliklər ola bilər!? Quzeyin dövləti, prezidenti, bayrağı və ən önəmlisi dövlətçilik ağlı vardır. Güneyin nəsi var? Sizin ağlınızın Güneyə yetərli olduğuna gərçəkdənmi inanırsinizmi cənab Əqlaniyyət!

***Qüsura baxma Kimsə! Sədəf eşqinə dənizi qurutmağa qalxanın payı bu qədərmiş!***

**Güney Azərbaycan Milli Qurtuluş Hərəkatı başqanı Eldar Qaradağlı**

**2023/07/20**

---------------------------------------------------------------------------------------------------------------

# *عقلانیّت و سیاست کیمسنین لومپنیزم درسی*

## جناب عقلانیت سؤزوم سیزه‌دیر!

منیم آدیم ائلدار قاراداغلی! آدیم-سانیم بللی، قلمیم، ایمضام بللی‌دیر. میللی-سیاسی آدبیم و آردەمین کسینلیکله ایزین وئرمز کی، اؤزومو دونیانین عقیل مرکزی سانیب، تاخما آد آلتیندا آزربایجان میللی حرکاتینی لومپنیزم جایناغی، میللت-وطن یولچولارینی ایسه لومپن آدی ایله تلفیق ائتمیش اولوم! بو وبالین آلتیندان چیخماق هر اوغولون ایشی دئیلدیر!
سیز – کیمسه بئی/بایان!، موللا سایاغی اورتاچاغ قافاسییلا باشقالارینی قویون سوروسو حساب ائدرک حدینیزی موللا سویه‌سینه یئندیردینیز! سیز، اؤز کیملیک وارلیغینیزی هئچه سایاراق، یابانجی دیل و ادبیاتلا گونئی آزربایجان میلی حرکاتینی لومپنیزم جایناغی و دؤرد گونئی قورومونون موجاهیدلره سلام گؤندرمه‌سینی قینایان ۷۸ تانینمیش میللی فعالی لومپن یعنی پوزوق، یاراماز، ساتقین اعلان ائتدینیز! عجبا، سیز بو حؤکمو کیمدن آلدینیز؟ کیمی آرخانیزا آلاراق

اؤزونوزدن چوخ بؤیوک ویجدان یوکونه قاتلاندینیز؟ فارس دیلینده یازماغینیز آلیشقانلیق اوزوندن ایدیمی، یوخسا کیمسه‌لره رفاقت مئساژی گؤندرمک ایسته دینیزمی؟

قوزئی آزربایجان دؤولت دیپلوماتیاسی ایله گونئی آزربایجان میللی حرکاتینین قورتولوش ساواشی آراسیندا هانسی بنزرلیکلر اولا بیلر!؟ قوزئیین موستقیل دؤولت آپاراتی، پرئزیدئنتی، بایراغی و ان اؤنملی سی دؤولتچیلیک عقلی واردیر.

گونئین نسی وار؟ سیزین عقلینیزین گونئی اوچون یئترلی اولدوغونا گرچکدنمی ایناتیرسینیز جناب عقلانیت!؟

قوصورا باخما کیمسه جنابلاری! صدف عشقینه دنیزی قوروتماغا قالخانین پایی بو قدرمیش!

گونئی آزربایجان میللی قورتولوش حرکاتی باشقانی ائلدار قاراداغلی

۲۰/۷/۲۰۲۳